TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
_____________ E.M.Ağayev
"25" dekabr 2018-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**BAĞAYARPAĞI ŞƏRBƏTİ**
PLANTAIN SYRUP

**Tərkibi**
*Təsiredici maddələr:* 5 ml (6,6 q) şərbətin tərkibində 1,25 q lansetşəkilli bağayarpağı ekstraktı (*Plantaginis lanceolatae folia*) (1:5) (ekstragent-su), 1,25 q əməköməci çiçəklərinin ekstraktı (*Malvae sylvestris flov*) (1:5) (ekstragent-su), 0,065 q askorbin turşusu vardır.
*Köməkçi maddələr:* metilparaben (E 218), propilparaben (E 216), 96 %-li etanol, qənnadı şəkəri. Şərbətin tərkibində 0,45 % etanol vardır.

**Təsviri**
Tünd moruğu və ya qırmızımtıl-qəhvəyi rəngdə xüsusi iyə və dada malik siropabənzər duru məhluldur. Saxlanma zamanı çöküntü verə bilər.

**Farmakoterapevtik qrupu**
Öskürək və soyuqdəymə xəstəliklərində istifadə olunan vasitələr. Bağayarpağı preparatları.
**ATC kodu:** R05C A10.

**Farmakoloji xüsusiyyətləri**
Tərkibinə əməköməci və lansetşəkilli bağayarpağının sulu ekstraktı, eləcə də askorbin turşusu daxil olan mukolitik, bəlğəmgətirici, antibakterial və immunostimuləedici kompleks preparatdır. Bağayarpağı yarpaqlarının aktiv maddələri: seliklər, iridoid qlikozidlər (aukubin), saponinlər, flavonoidlər, polisaxaridlər və üzvi turşulardır. Saponinlər və bağayarpağı ekstraktının digər aktiv maddələri bronxial vəzilərin sekresiyasını stimulə edərək bəlğəmin miqdarını artırır, eyni zamanda yapışqanlılığını azaldır. Seliklər müdafiə qatı əmələ gətirərək yuxarı tənəffüs yollarının selikli qişasının qıcıqlanmasını azaldaraq mukolitik effekti artırır, öskürək reseptorlarının qıcıqlanmasını azaldır, infeksiya üçün baryer rolunu oynayır.Tərkibində iridoid qlikozidlər, flavonoidlər və üzvi turşular olduğuna görə bağayarpağı ekstraktı həm də immunostimuləedici, ağrıkəsici, antihipoksik, antibakterial və virusəleyhinə təsir göstərir. Əməköməci ekstraktı tərkibində olan seliklər, flavonoidlər, fenol turşuları, antosianozidlər, antosianidinlər, taninlərin hesabına tənəffüs yollarının selikli qişasında müdafiə pərdəsi əmələ gətirərək iltihab və qıcıqlanmanı azaldır, tənəffüsü yüngülləşdirir, qeyri-produktiv öskürəyi azaldır.
Askorbin turşusu antioksidant olub kollagen sintezində iştirak edir, damarların divarını möhkəmləndirir, qeyri-spesifik immuniteti qaldırır, orqanizmin ümumi intoksikasiyasını azaldır. Respirator xəstəliklərin müalicə və profilaktikasında geniş miqyasda istifadə olunur.

**İstifadəsinə göstərişlər**
Müxtəlif mənşəli özlü qeyri-produktiv (quru) öskürək, eləcə də böyüklərdə və uşaqlarda tənəffüs orqanlarının infeksion xəstəlikləri, tütün tüstüsü və digər qıcıqlandırıcılardan yaranan öskürək.

**Əks göstərişlər**
Preparatın komponentlərinə qarşı yüksək fərdi həssaslıq. Mədənin selikli qişasının İltihabi xəstəlikləri, mədə və onikibarmaq bağırsağın xora xəstəliyi, qlükoza-6-fosfat-dehidrogenazanın çatışmazlığı. Şəkərli diabetdən əziyyət çəkən pasiyentlərə ehtiyatla təyin etmək lazımdır. 3 yaşa qədər uşaqlar.

**Digər dərman vastələri ilə qarşılıqlı təsiri**
Tədqiq olunmayıb.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamiləlik və laktasiya dövründə preparatın istifadəsinə əks göstəriş yoxdur. Müşahidələr göstərir ki, preparat dölə teratogen və embriotoksik təsir göstərmir.
Tərkibində şəkər olduğuna görə şəkərli diabet xəstələrində istifadəsi məsləhət görülmür.

**Pediatriyada istifadəsi**
3 yaşa qədər uşaqlara təyin etmək olmaz.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabilyyətinə təsiri**
Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsir etmir.

**İstifadə qaydası və dozası**
Preparat qida qəbulundan asılı olmayaraq qəbul edilir.
*3-7 yaş arasında olan uşaqlar:*s utkada 3 dəfə, hər dəfə 1 çay q aşığı (5 ml).
*7-14 yaş arasında olan uşaqlar:* sutkada 3 dəfə, hər dəfə 1-2 çay qaşığı.
*14 yaşdan yuxarı uşaqlar və böyüklər:* sutkada 3-5 dəfə, hər dəfə 2 çay qaşığı.
Şərbəti çoxlu miqdarda isti maye ilə içmək lazımdır.
Müallicə kursu 5-7 gündür.

**Əlavə təsirləri**
Preparatın komponentlərinə və fitopreparatlara yüksək həssaslıq olduqda allergik reaksiyalar (dermatit, qaşınma, övrə) törədə bilər.

**Doza həddinin aşılması**
Doza həddinin aşılması halları qeyd olunmayıb.

**Yararlılıq müddəti**
2 il.
Flakon açıldıqdan sonra istifadə müddəti 28 gündür.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Saxlanma şəraiti**
25°C-dən yüksək olmayan temperaturda və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Buraxılış forması**
130 ml məhlul, flakonda. 1 flakon ölçü qaşığı və içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
"Ternofarm" MMC.
Ukrayna, 46010, Ternopol şəhəri, Fabriçnaya küçəsi, 4.